● Yalnız şifahi şəkildə mövcudluğu

147. Bu üslubda çoxmənalılığa yol verilmir, düstur və qrafikalardan istifadə olunur:
● Elmi
● Məişət
● Bədii
● Publisistik
● rəsmi-işgüzar

148. Aşağıdakılardan biri rəsmi sənədlərə aiddir:
● fərman
● ərizə
● protokol
● izahat
● arayış

149. “Təmizləyici qurğuların quraşdırlması və Xəzərə axıdılan sənaye məişət tullantılarına nəzarət ətraf mühiti mühafizə proqramının başlıca istiqamətlərindən biridir.Dəniz ekosistemində zəhərli və ziyanlı maddələrin toplanması ekoloji fəlakətə aparan yoldur.” Mətn hansı üslubdadır?
● Elmi üslub
● Bədii
● Məişət
● Rəsmi-işgüzar
● Publisistik

150. Elmi üsluba aid edilənlərdən biri yanlışdır:
● Yalnız şifahi şəkildə mövcud olur
● Sözlər yalnız həqiqi mənada işlənir

● Çoxmənalılığa yol verilmir
● Beynəlmiləl terminlər üstünlük təşkil edir
● Dialoqların istifadə edilməsi xarakterik deyil

151. İşgüzar sənədlər hansılardır? 1.Arayış, 2.Sərəncam, 3.Protokol, 4.Konstitusiya, 5.Ərizə, 6.Əmr.
● 1,3,5
● 2,3,4
● 1,2,3
● 4,5,6
● 2,4,6

152. Hansı sənədlər işgüzar üslubda olur?
● elan, arayış
● əmr, sərəncam
● akt, bəyanat
● nota, konstitusiya
● qanun,qərar

153. Hansı sənədlər adətən rəsmi üslubda olur?
● bəyanat, fərman
● protokol, sərəncam
● izahat, məktub
● xasiyyətnamə, zəmanət
● etibarnamə, ərizə

154. Rəsmi sənədlər hansılardır? 1.fərman, 2.izahat, 3.əmr, 4.tərcümeyi-hal, 5.xasiyyətnamə, 6.konstitusiya.
● 1,3,6
● 2,3,4
● 4,5,6
● 1,2,3
● 2,4,5

155. Məntiqi ardıcıllığı tamamlayın: Qanun ,qərar ,sərəncam .................. .
● fərman, əmr
● elan, ərizə
● izahat, arayış
● protokol , reklam
● bildiriş, məktub

156. Məntiqi ardıcıllığı tamamlayın. "Bildiriş izahat arayış ............... ."
● ərizə, reklam
● əmr qanun
● məcəllə, qərar
● konstitusiya akt
● fərman, sərəncam

157. İşgüzar sənədlərə aid cəhətləri seçin:
1.Dövlət əhəmiyyəti daşımır.
2.Hüquqi məzmuna malik olur.

3. Mütəxəssislər tərəfindən hazırlanır.
4.Hər hansı bir şəxs tərəfindən hazırlanır.
● 1,4
● 1,3
● 1,2
● 2,3
● 3,4

158. Rəsmi sənədlərlə bağlı doğru olanları təyin edin:
1.Fikrin standart formalarla uyğun yığcam verilməsi.
2.Obrazlı ifadələr çoxmәalı sözlərdən istifadə.
3.Bu üslubun inkişafı dövlətçilik ənənələri ilə sıx bağlıdır.
4.Fərdi nitq ünsürləri sənədləri fərqləndirir.
5.Arxaik leksika və əski sintaktik konstruksiyalar uzun müddət mühafizə olunur.
● 1,3,5
● 2,4
● 1,3,4
● 4,5
● 2,3,5

159. Rəsmi və işgüzar sənədlər üçün ortaq xüsusiyyəti müəyyən et:
1.Fikir standart formalarda, yığcam şəkildə verilir.
2.Hüquqi məzmuna malik olur, tarixi əhəmiyyət daşıyır.
3.Fərdi nitq ünsürlərindən qaçılır.
4.Xüsusi mütəxəssislər tərəfindən hazırlanır.
5.Rəsmi şəxsin imzası, möhürü ilə təsdiq olunur.
● 1,3
● 2,4,5
● 2,5
● 1,3,5
● 1,4

160. Ali məktəbə qəbul olan insandan özü haqqında məlumat yazıb təqdim etməsi istənilir. Bu zaman yeni tələbə olan şəxs hansı yazı nümunəsindən istifadə edəcək?
● tərcümeyi-hal
● ərizə
● referat
● arayış
● rəy

161. Bunlardan yalnız birini rəsmi-işgüzar üslubun ən sərbəst forması hesab etmək olar?
● məktub
● ərizə
● əmr
● arayış
● fərman

162. Hansı işgüzar sənəd fərdin özü tərəfindən hazırlanmır?
● arayış
● izahat

● ərizə
● tərcümeyi-hal
● məlumat

163. İdman yarışının keçiriləcəyi yer və vaxt haqqında divara vurulan elan aşağıdakılardan hansıdır?
● Afişa
● Reklam
● Anons
● Bildiriş
● Məlumat

164. Müstəqil Azərbaycan dövlətinin yaranıb möhkəmlənməsi ilə yüksək sürətlə inkişaf etmiş üslub hansıdır?
● rəsmi-işgüzar
● bədii
● publisistik
● məişət
● elmi

165. Bu üslub tarixi təkamül prosesində formalaşmış standart formalardan kənara çıxmır.
● Rəsmi-işgüzar
● Elmi
● Bədii
● Publisistik
● Məişət

166. Doğru fikirləri müəyyən edin:
1.nitqin sərbəstliyi və təbiiliyi-məişət üslubu.
2.məntiqilik, ardıcıllıq, konkretlik- elmi üslub.
3.standart formalardan istifadə- publisistik üslub.
4.şeir, nəsr ,dramaturgiya dili- bədii üslub.
5. obrazlı və emosional nitq formasıdır- rəsmi- işgüzar üslub.
● 1,2,4
● 2,3,5
● 2,3,4
● 1,3,5
● 1,2,3

167. Yanlış fikirləri müəyyən edin:
1.nitqin sərbəstliyi və təbiiliyi-məişət üslubu.
2.məntiqilik, ardıcıllıq, konkretlik- elmi üslub.
3.standart formalardan istifadə- publisistik üslub.
4.şeir, nəsr ,dramaturgiya dili-bədii üslub.
5.obrazlı və emosional nitq formasıdır- rəsmi- işgüzar üslub.
● 3,5
● 1,4
● 1,2
● 2,5
● 3,4

168. Verilən xüsusiyyətlərdən biri bədii üsluba aid deyil:

● Terminlər
● Mübaliğə
● Kinayə
● Təşbeh
● Epitet

169. Verilən xüsusiyyətlərdən biri elmi üsluba aid deyil.
● Mətbuat dili
● Sxemlər
● Mürəkkəb cümlələr
● Terminlər
● Modal sözlər

170. Hansı üslubdadır: “Axşamdır... Günəşin rəngi qırmızı, Buludlar çəhrayı, üfüqlər laldır, Yerlə vidalaşır o göylər qızı, Səyyar buludların rəngi xal-xaldır.”
● Bədii
● Elmi
● Rəsmi-işgüzar
● Publisistik
● Məişət

171. Publisistik üsluba aid edilənlərdən hansı yanlışdır:
● Terminlər
● Qəzet dili
● Mətbuat dili
● Radio dili
● Televiziya dili

172. Rəsmi-işgüzar üslub neçə yerə ayrılır?
● 2
● 3
● 4
● 5
● 6

173. Biri ədəbi dilin funksional üslublarına aid deyil:
● fərdi üslub
● bədii üslub
● elmi üslub
● məişət üslubu
● rəsmi-işgüzar üslub

174. Publisistik üslub hansı qəzetin nəşrə başlaması ilə yaranıb?
● “Əkinçi”
● “Azərbaycan”
● “Kəşkül”
● “Ziya”
● “Dəbistan”

175. Hansı fikir publisistik üsluba aid deyil?

- Gündəlik həyatda insanların bir-biri ilə ünsiyyət saxladığı dildir
- Publisistik üslubun əsas xüsusiyyəti fikrin hamı tərəfindən anlaşıqlı,aydın olmasıdır
- Bu üslub mətbuatın, radio-televiziyanın dilidir
- Publisistik üslubun "Əkinçi" qəzetinin nəşrə başlaması ilə qoyulub
- Publisistik üslubun şifahi və yazılı formaları var

176. "Böyük ömrün dan yeri" mətnində kimləri "tatar" adlandırırdılar?
- azərbaycanlıları
- rusları
- gürcüləri
- özbəkləri
- qazaxları

177. "Milliyyətindən asılı olmayaraq, seminariyada hamı rus dilində danışmalıdır" ifadəsi hansı mətndəndir?
- Böyük ömrün dan yeri
- Şəbi-hicran
- Üç ağacın sirri
- Təmiz su sağlamlığın təməlidir
- Əfsanəyə bənzər eşq

178. "Böyük ömrün dan yeri" mətnində Seminariya direktoru Miropyevin "Tatar olasan, özü də bu istedadda, bu qabiliyyətdə?" ifadəsi kim haqqında səslənmişdir?
- Üzeyir Hacıbəyli
- Əhməd Cavad
- Hüseyn Cavid
- Səməd Vurğun
- Nizami Cəfərov

179. "Şəbi-hicran" poemasının müəllifi kimdir?
- Bəxtiyar Vahabzadə
- Rəsul Rza
- Səməd Vurğun
- Üzeyir Hacıbəyli
- Əli Terequlov

180. Bəxtiyar Vahabzadə "Şəbi-hicran" poemasında kimin yaradıcılığından danışır?
- M.Füzuli
- N.Gəncəvi
- Ü.Hacıbəyli
- S.Bəhlulzadə
- N.Cəfərov

181. Bu fikirlərdən hansılar "Şəbi-hicran" poemasına aid deyil?
1.B.Vahabzadə Füzulinin alleqorik əsərlər yazmasına işarə edir.
2.Füzulinin daxili aləmi öz sözləri ilə açılır.
3."Leyli və Məcnun" operasının Füzulinin poeması əsasında yazılmasına işarə edir.
4.Füzulinin yaradıcılığı B.Vahabzadənin dili ilə təqdim olunur.
5.Füzuli "Leyli və Məcnun" poemasını ana dilində yazdığına işarə edir. 6.Füzuli muğamın ecazkar gücündən danışır.
- 2,5,6

- 1,2,6
- 1,2,4
- 2,3,4
- 2,4,5

182. Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi nə zaman layiqli yerini tutdu?
- 2001-ci il 1 avqust
- 1922-ci il 1iyun
- 1940-cı il 1 yanvar
- 1929-cu il 1 fevral
- 1996-cı il 12 noyabr

183. Azərbaycanda hansı əlifbadan istifadə olunmamışdır?
- yunan
- latın
- kiril
- ərəb
- ərəb, kiril

184. Azərbaycanda baş verən əlifba dəyişikliklərinin düzgün ardıcıllığını müəyyən edin:
- ərəb, latın, kiril, latın
- fars, yunan, ərəb, latın
- yunan, latın, ərəb, latın
- ərəb, yunan, kiril, latın
- latın, kiril, ərəb, latın

185. Kim XIX əsrin ikinci yarısından dövrünün maarifçi ziyalılarını Əlifba islahatı problemi üzərində düşünməyə vadar etmişdir?
- M.F.Axundov
- M.Səməd
- Z.Hacıbəyov
- N.Nərimanov
- M.Ə.Sabir

186. Hansı ifadə “Sizin də bir basketbol səbətiniz varmı?” mətninin məzmununa aid deyil?
- Mən müəllim-vətəndaş olmağa çalışacağam
- Həyatda bir “oyun” oynamaq istəyiriksə, mütləq hədəflərimiz olmalıdır
- Qələbəyə nə qədər uzaq və yaxın olduğumuzu bilmək istəyiriksə, ilk növbədə “finiş xətti” ni görməliyik
- Müəllim bu dəfə iclasa təkcə şagirdləri yox, onların atalarını da dəvət etmişdi
- İclasda həyatdakı hədəflər və onların əhəmiyyəti barədə söhbət edildi

187. Sinqapur təhsil sisteminə aid olanlardan biri yanlışdır:
- Yalnız öz dillərini öyrənirdilər
- İkidillilik Sinqapur təhsil sisteminin çox önəmli xüsusiyyətlərindəndir
- Bir ildə cəmi 13-14 mövzu dərin şəkildə öyrədilir
- Riyazi mövzular şagirdlərə öz-özünə öyrənməyi də öyrədir
- 6-cı sinfin sonunda bütün şagirdlərin akademik inkişafı ibtidai sinfi bitirmə imtahanı ilə qiymətləndirilirdi

188. Sinqapur təhsil sistemində şagirdlər öz doğma dilləri ilə yanaşı hansı dili bilməlidirlər?
- ingilis

● rus
● fransız
● alman
● ispan

189. Füzulinin “Leyli və Məcnun” poeması əsasında opera yazan görkəmli şəxs kimdir?
● Üzeyir Hacıbəyli
● H.Z.Tağıyev
● Müslüm Maqomayev
● Fikrət Əmirov
● Zülfüqar Hacıbəyli

190. XX yüzilliyin əvvəllərində erkən yaşda qızların ərə verilməməsi üçün mətbuatın gücündən istifadə edən Gəncə ziyalıları kimlərdir?
● Əli Razi; Əli Nəzmi
● Ş.Şükürov; Yekaterina Vitoviç
● H.Z.Tağıyev; Z.Hacıbəyli
● M.A.Abbaszadə; Əli Nəzmi
● N.Nərimanov; Ü.Hacıbəyli

191. “Doroti Meri Kroufut Hodgkin” mətninin məzmunu haqqında deyilənlərdən biri yanlışdır:
● Riyaziyyat elmi sahəsində 1694-cü ilin Nobel mükafatçısı Doroti Meri olmuşdur
● Kiçik yaşlarından Dorotinin elmə marağını ən çox dəstəkləyən onun anası idi
● Doroti kolleci bitirdikdən sonra Kembric Universitetində işləmək imkanı qazanır
● Doroti 1937-ci ildə doktorluq dərəcəsi alır
● Doroti 1947-ci ildə London Kral Cəmiyyətinin üzvü seçilir

192. Kimya elmi sahəsində 1964-cü ilin Nobel mükafatçısı kim olmuşdur?
● Doroti Meri
● Alan Xiqer
● Corc Porter
● Keri Mullis
● Volter Gilbert

193. “Doroti Meri Kroufut Hodgkin” mətnindən verilən nümunə hansı üslubdadır? Penisillinin kristallarına müxtəlif tərəflərdən rentgen şüaları buraxmaqla fotolövhələrdə qeydiyyata alınmış nümunələrin difraksiyası müəyyən edilir və kristal şəbəkədə əsas atomların yerləşməsi hesablanaraq tapılır.
● elmi
● məişət
● bədii
● rəsmi-işgüzar
● publisistik

194. “Təbiət Allahın şah əsəridir” şeirinin müəllifi kimdir?
● Zəlimxan Yaqub
● Səməd Vurğun
● Nizami Gəncəvi
● Əhməd Cavad
● Rəsul Rza

195. “Təbiət Allahın şah əsəridir” şeirinin məzmunu haqqında deyilənlərdən biri doğrudur:
● Şair yaşıllığı məhv edənlərə öz etirazını bildirir
● Şair dağların döyüş məskəni olduğuna işarə edir
● İnsan yaratdığı təbiəti Allahın şah əsəri hesab edir
● Suyun çəkilməsi yaşıllığın məhvi deməkdir
● Şair susuz əraziləri kaman və neylə ifa olunan musiqiyə bənzədir

196. “Böyük ömrün dan yeri” mətnindən “müəllim-vətəndaş” ifadəsi və “Təbiət Allahın şah əsəridir” şeirində “şair-vətəndaş” ifadəsi hansı görkəmli şəxslərə aiddir?
● Üzeyir Hacıbəyli, Zəlimxan Yaqub
● Söhrab Tahir, Fikrət Xalıqov
● M.F.Axundzadə, Cəfər Cabbarlı
● Nizami Cəfərov, Səttar Bəhlulzadə
● Toğrul Nərimanbəyov, Nəriman Nərimanov

197. “Ömürdən etüdlər” mətninin məzmunu haqqında deyilənlərdən biri yanlışdır:
● Səttar Bəhlulzadə amerikalı rəssam ilə çox yaxın dost olmuşdu
● “Bu rəsm əsəri yox kətana köçürülmüş poeziyadır”
● S.Bəhlulzadə 1909-cu ildə Bakının Əmircan kəndində anadan olmuşdur
● S.Bəhlulzadə təhsilini Moskva Rəssamlıq İnstitutunda davam etdirmişdir
● Amerikalı rəssam S.Bəhlulzadə ilə tanış ola bilmədiyinə görə təəssüfləndi

198. “Bu torpaq üçün yaşa!” şeirinin müəllifi kimdir?
● Zəlimxan Yaqub
● Səməd Vurğun
● Söhrab Tahir
● Zahid Xəlil
● Oqtay Zəngilanlı

199. S.Bəhlulzadənin çəkdiyi tablolara aid deyil: 1.“Kəpəzin göz yaşları” 3. “Qızbənövşəyə gedən yol”. 2.“Aşıq Pəri” 4. “Azərbaycan nağılı” 5. “Sara xatun”
● 2,5
● 1,3,4
● 2,3
● 1,2,4
● 4,5

200. Akademik Mirəli Qaşqay hansı ərazimizi “Azərbaycanın Uralı” adlandırmışdır?
● Naxçıvan
● Kəlbəcər
● Zəngilan
● Sumqayıt
● Mingəçevir

201. “Təbii bulaqlar muzeyi-Naxçıvan” mətninin məzmunu ilə bağlı hansı fikir yanlışdır?
● Naxçıvandakı mineral sular müalicəvi əhəmiyyət daşımırdı
● Dağ-mədən ehtiyatlarına görə Naxçıvan “Azərbaycanın Uralı” adlandırılmışdır
● Alimlərimiz Naxçıvanı “təbii bulaqlar muzeyi” adlandırmışdır
● Yerli əhali Naxçıvandakı şəfa suyu olan bulaqları “Tanrı ocağı” adlandırmışdır
● Naxçıvan şəhərinin adı olan Naksuana türk dilində “xeyirxah su yeri” deməkdir

202. “Bu torpaq üçün yaşa” şeirinin məzmunu haqqında deyilənlərdən biri doğrudur:
● Sən, Azərbaycan övladı, bu məmləkət sənindir, bu məmləkəti qoru
● Cənub və Şimal Azərbaycanın birləşməsi üçün birliyə çağırışdır.
● Ailədə övladı tərbiyə etməyin yollarını göstərir
● Məzmunu bizə “Muğan” əfsanəsini xatırladır
● Cəmiyyətdəki problemlərin səbəbi bir-birini düzgün anlamamaqdır

203. Çanaqqala döyüşündə Antanta dövlətlərinin əsas məqsədinə aid deyil:
● Sovet imperiyasını qurmaq
● Çanaqqala boğazını ələ keçirmək
● Osmanlı imperiyasını məğlub etmək
● Almaniyanı mühüm bir müttəfiqindən məhrum etmək
● Rusiyaya yardım etmək

204. “Çanaqqalanı ölümsüzləşdirən ruh” mətninin məzmunu haqqında deyilənlərdən biri yanlışdır:
● II Dünya Müharibəsində türklərin ruslara yardım etməsi nəticəsində Sovet Dövləti qələbə çaldı
● 1914-1915-ci illər Çanaqqala müharibəsində türk millətinə bir deyil, iki zəfəri birdən qazandırmışdır
● Çanaqqala, əslində, türk tarixinin bir şərəf nöqtəsidir
● Çanaqqalada mənəvi güc üstün gəldi
● Antanta dövlətləri Çanaqqala boğazını, daha sonra İstanbulu ələ keçirmək niyyətində idi

205. İngilis ordu komandanı General Hamiltonun: “Bizi türklərin maddi gücü deyil, mənəvi gücü məğlub etdi. Çünki onların atacaq barıtı da qalmamışdı. Lakin biz göydən enən gücləri gözümüzlə görürdük!..” sözləri və etirafı hansı hadisə ilə bağlı idi?
● Çanaqqala savaşı
● Qarabağ savaşı
● II Dünya müharibəsi
● Çaldıran döyüşü
● Maqneziya döyüşü

206. “Üç ağacın sirri” mətninə əsasən şad-xürrəm yaşayan ailənin nəşəsini nə qaçırırdı?
● Qızların evdə hər gün evdə deyinib-döyüşməsi
● Kənd camaatının onları heç sevməməsi
● Balıqçı Rahimin balıq tuta bilməməsi
● Qızların həddindən artıq çirkin olması
● Ailənin çox kasıb olması

207. “Üç ağacın sirri” mətnində bacıların adları nə idi?
● Sərvişah, Gülnar, Nazəndə
● Nazlı, Aydan, Səkinə
● Gülnarə, Səbinə, Leyla
● Hurizat, Nazlı, Nigar
● Sərvişah , Nazlı, Hurizat

208. “Oğluma nəsihət”dən verilmiş “Ey oğul, insanları sev, insanlığı sev” ifadəsində xitabı tapın.
● Ey oğul
● insanları sev
● insanlığı sev
● insanları

● insanlığı

209. “Uşağın cavabı” mətnində su satan qız haralı idi?
● suriyalı
● türk
● azərbaycanlı
● rus
● ingilis

210. “Uşağın cavabı” mətnində ona verilən əlavə iyirmi quruşu qaytaran uşağın cavabı nə oldu?
● O mənim haqqım deyil, mən dilənçi deyiləm
● Əlavə pula ehtiyacım yoxdur
● Pulu mənə yox, anama verin
● Anam əlavə pul götürməyə icazə vermir
● Bu pulun əvəzinə mənə yemək alın

211. “Uşağın cavabı” mətninin məzmunu ilə bağlı fikirlərdən hansılar doğru deyil?
1.Şəxs yeməkxanaya getmək üçün yenidən avtobusa minməli olur.
2.Görüşün baş tutmaması şəxsə ən böyük həyat dərsini almasına zəmin yaradır.
3.Görüşün baş tutmamasına səbəb önəmli bir toplantı olur.
4.Ofsiantın gətirdiyi yeməkləri yeyən şəxs yenidən yemək sifariş verir.
5.Şəxs telefonunda oyun olmadığı üçün sevinir.
● 1,4,5
● 2,3,5
● 1,3,4
● 3,4,5
● 1,2,3

212. Tiflisdə Zaqafqaziya Qızlar İnstutunu qızıl medalla bitirən ilk ali Azərbaycan xanımı, ilk azərbaycanlı şəfqət bacısı, ilk hərbi rütbəli azərbaycanlı qızı və ən əsası nəsillərə örnək ola biləcək sədaqətli və pak məhəbbəti ilə “məcazi eşqdən həqiqi eşqə körpü salan” “səadət səltənətinin baş tacı”!... “Əfsanəyə bənzər eşq” mətnində bu ifadələr kim haqqında söylənilmişdir?
● Nigar Şıxlinskaya
● Səkinə Axundzadə
● Leyla Şıxlınskaya
● Barat Şəkinskaya
● Xədicə Qayıbova

213. “Əfsanəyə bənzər eşq” mətnində “rus artilleriyasının tanrısı” sayılan əfsanəvi igid,general kim idi?
● Əliağa Şıxlinski
● Mehdi Hüseynzadə
● Həzi Aslanov
● Ziya Bünyadov
● Yaqub Quliyev

214. “Əfsanəyə bənzər eşq” mətnində kimlərin məhəbbəti əfsanəyə bənzədilir?
● Nigar və Əliağanın
● Leyli və Məcnunun
● Əsli və Kərəmin
● Əli və Ninonun

● Dilbər və Müşfiqin

215. “Bundan yaxşısı olmaz” mətnində ağır yaralanan Cerri necə sağ qalır?
● Həkimlərin peşəkarlığı və öz optimizmi sayəsində
● Həmişə insanlara yaxşılıq etdiyi üçün
● Varlı olduğu üçün
● Ailəsi onu tez xəstəxanaya tez çatdırdığı üçün
● Dostlarının köməyi sayəsində

216. “Bundan yaxşısı olmaz” mətnində Cerrini nə üçün hamı sevirdi?
● Optimist olduğu üçün
● Güclü olduğu üçün
● Varlı olduğu üçün
● Yaraşıqlı olduğu üçün
● İstedadlı olduğu üçün

217. “Ölkələrin əlifba ilə sıralanması” mətninin məzmunu ilə bağlı verilmiş fikirlərdən biri yanlışdır:
● Yaqut əl-Həməvi heç vaxt Azərbaycanda olmamışdır.
● Azərbaycanın sərhədləri Bərdədən başlayaraq Ərzincana qədər uzanır.
● Yaqut əl-Həməvi Azərbaycana iki dəfə səyahət etmişdir.
● Azərbaycan arası kəsilməyən çaxnaşma və döyüşlər ölkəsidir.
● Azərbaycanla Arranın arasında Ərraz (Araz) adlanan çay axır

218. “Ölkələrin əlifba ilə sıralanması” əsəri ilə bağlı hansı fikir yanlışdır?
● Müəllif Mahmud Kaşğarlının “Divani-lüğəti türk” əsərindən yararlanıb.
● Əsər coğrafi ensiklopediya səciyyəsindədir
● Əsərdə müəllif tərəfindən yer adlarının düzgün yazılışı verilmişdir
● Əsər Azərbaycanın toponimik xəritəsinin öyrənilməsi üçün çox dəyərlidir
● Müəllif əsəri yazarkən şəxsi səyahət təcrübələrinə əsaslanmışdır

219. Qarabağ xalçaları neçə qrupa bölünür?
● 4
● 6
● 3
● 2
● 5

220. “............ xalçalarının 33 kompozisiyası mövcuddur.Digər xalça növlərindən öz parlaq koloriti ilə seçilir. Onlar 4 qrupa bölünür.” Nöqtələrin yerinə hansı söz yazılmalıdır?
● Qarabağ
● Qazax
● Naxçıvan
● Şamaxı
● Şəki

221. “Qarabağ xalçaçılıq məktəbi” mətninin məzmununa əsasən yanlış fikri tapın.
● Azərbaycandan xarici ölkələrə xalça və xalça məmulatı ixrac edilə bilmirdi
● Xovlu və xovsuz xalçalar çadırların, evlərin divar bəzəklərində istifadə olunurdu
● Sasanilər dövründə Azərbaycanda xalça sənəti daha da inkişaf emişdir
● Naxışları ilə diqqət çəkən xalçalar Avropa rəssamlarının əsərlərində, miniatürlərdə öz əksini tapırdı

● Qarabağ xalçaları 4 qrupa bölünür: medalyonlu,medalyonsuz,namazlıqlar və süjetli

222. Füzulinin “Leyli və Məcnun” poemasından göstərilən “Məcnun Leylinin məzarı üstündə” adlı musiqili səhnəciyində Məcnun rolunu kim oynayırdı?
● Cabbar Qaryağdıoğlu
● Üzeyir Hacıbəyli
● Xan Şuşinski
● Nəcəf bəy Vəzirov
● Seyid Mirbabayev

223. “Məcnun Leylinin məzarı üstündə” mətninə əsaslanaraq Cabbar Qaryağdıoğlu ilə bağlı yanlış fikri seçin.
● Cabbar Qaryağdıoğlu Məcnun rolunu oynamaqdan imtina etmişdir
● “Fərhad və Şirin” operasında Fərhad rolunun mahir ifaçısı olmuşdur
● Bir sıra qəzetlər onun ifasını yüksək qiymətləndirmişdilər
● Səsini vala yazdıran ilk şəxs Cabbar Qaryağdıoğlu olmuşdu
● Şuşada və Bakıda təşkil olunan “Şərq konsertləri”ndə çıxış etmişdir

224. Azərbaycan mətbuatının əsası hansı mətbu orqan ilə qoyulmuşdur?
● “Əkinçi”
● “Ziya”
● “Şərqi-rus”
● “Kəşkül”
● “Həyat”

225. Azərbaycan mətbuatının əsası kim tərəfindən qoyulub?
● Həsən bəy Zərdabi
● Üzeyir Hacıbəyli
● Əbdürrəhim bəy Haqverdiyev
● Mirzə Fətəli Axundov
● Nəriman Nərimanov

226. “Əkinçi” ənənələrindən bəhrələnən Ünsizadə qardaşlarının yaratdığı mətbu orqanlar hansılar idi?
● “Ziya”, “Kəşkül”
● “Həyat”, “Əkinçi”
● “Əkinçi”, “Molla Nəsrəddin”
● “Həyat”, “Füyuzat”
● “Şərqi-rus”, “Dəbistan”

227. “Azərbaycan Respublikası” mətninə əsasən Azərbaycanda mart soyqırımını törədən erməni-bolşevik qüvvələrinin qarşılarına qoyduğu ən böyük məqsəd nə idi?
● Bütün Azərbaycanı işğal etmək
● “Musavat” partiyasını idarə etmək
● AXC-nin yaranmasına kömək etmək
● Sadəcə xalqın gözünü qorxutmaq
● Azərbaycanın iqtisadiyyatına ziyan vurmaq

228. “Azərbaycan Respublikası” mətninə əsasən ermənilərin bütün Azərbaycanı işğal etmək planını nə pozdu?
● 1918-ci ilin may ayında AXC-nin yaranması
● Qonşu dövlətlərin onlara kömək etməməsi
● Azərbaycanla sülh müqaviləsi imzalandığı üçün

● Ordusunun zəifləməsi
● Yemək ehtiyatının azalması

229. “Azərbaycan Respublikası” mətninin məzmunu ilə bağlı verilən fikirlərdən biri yanlışdır:
● 1918-ci aprelin 22-də Azərbaycan öz müstəqilliyini elan etdi.
● Bakıda bolşeviklərin və erməni partiyalarının əsas rəqibi “Müsavat” idi.
● Üç gün ərzində Bakıda 12 mindən çox azərbaycanlı qətlə yetirildi.
● 1918-ci il mayın 26-da Zaqafqaziya Seymi özünün buraxıldığını elan etdi..
● Mayın 27-də Seymin müsəlman fraksiyası Azərbaycan Milli Şurasını ysratdı.

230. Termin nəyə deyilir?
● ixtisas və peşə ilə bağlı sözlərə
● yaxınmənalı sözlərə
● yalnız Avropa mənşəli sözlərə
● məcazi mənalı sözlərə
● alınma sözlərə

231. Termin işlənən cümlələri müəyyən edin.
1.Dostumdan gələn xəbər məni sevindirdi.
2.Aşıq şeiri janrlarından biri də qoşmadır.
3.Sayın mənaca iki növü var.
4. İçəridəki əşyaları yaxşı-yaxşı sayın.
5.Təknədəki çörəyin ətri adamı iştaha gətirirdi.
● 2,3
● 1,5
● 3,5
● 1,4
● 1,2

232. Hansı sözlər yalnız termin kimi işlənir? 1.enerji, 2.folklor, 3.bölmə, 4.sintaksis, 5.hürufizm, 6.dil.
● 2,4,5
● 1,2,6
● 1,2,4
● 2,4,6
● 1,3,5

233. Hansı sözlər həm termin, həm də ümumişlək söz kimi işlənə bilər? 1.bənd, 2.leksika, 3.say, 4.divan, 5.relyef, 6.metafor.
● 1,3,4
● 2,3,5
● 2,4,6
● 3,4,5
● 1,2,3

234. Termin haqqında verilənlərdən biri yanlışdır:
● Terminlər müxtəlif məna çaları ifadə edir.
● Terminlər müəyyən elm sahəsinə aid olur.
● Dildə həm milli, həm də alınma termin işlənir.
● Elə sözlər var ki, yalnız elmi mətndə termin olur.
● Beynəlmiləl terminlər milli terminləri sıxışdırır.

235. Fikirlərdən hansı doğrudur?
● Məişət üslubunun əsas xüsusiyyəti təbii və sərbəst olmasıdır.
● Sözün elmi üslubdakı əsas işinə poetik funksiya deyilir.
● Bədii üslub yalnız yazılı formada təzahür edir.
● Elmi üslubda ümumi terminologiya mövcuddur
● Fərdi üslubun ən qabarıq forması rəsmi-işgüzar üslubdadır

236. Avropa mənşəli terminləri seç: 1.Təşbeh, 2.Fonem, 3.Kinayə, 4.Omonim, 5.Kulminasiya, 6.İstiarə, 7.Alqoritm.
● 2,4,5,7
● 3,6,7
● 2,4,5
● 1,3,6,7
● 1,2,5,6

237. Dəqiqlik,konkretlik kimi xüsusiyyətlər elmi üslubdan başqa daha hansı üslubda özünü göstərir?
● Rəsmi- işgüzar üslub
● Bədii üslub
● Publisistik üslub
● Məişət üslubu
● Fərdi üslub

238. "Terminlər elmi mətnlərdə ............ funksiya daşıyırlar." Nöqtələrin yerinə hansı söz yazılmalıdır?
● terminoloji
● məcazi
● poetik
● informativ
● rəsmi

239. Sözün elmi üslubdakı əsas funksiyasına nə deyilir?
● terminoloji
● poetik
● informativ
● məcazi
● rəsmi

240. Hansı variantda "sifət" sözü terminoloji funksiya daşıyır?
● Sifət əşyanın əlamətini və keyfiyyətini bildirən əsas nitq hissəsidir.
● Nazlının sifəti utandığından qıpqırmızı olmuşdu.
● Onun sifətindəki qırışlar həyatının çətinliyindən xəbər verirdi.
● Qocanın qırışmış sifətində illərin yorğunluğu hiss olunurdu.
● Məmməd sifətini turşudub üzünü yana çevirdi.

241. Hansı variantda "zərf " sözü terminoloji funksiya daşıyır?
● Zaman zərfi hərəkətin icra olunduğu zamanı bildirir
● Raya zərfi açmaq üçün həyəcanlanırdı
● Məktubu qoymağa zərf tapa bilmədim
● Göndərilən zərfin üzərində sizin adınız yazılıb
● Zərfin içərisində önəmli məlumatlar var idi

242. Sözün neçə funksiyası var?
● 3
● 2
● 4
● 1
● 5

243. Mətndə bilavasitə poetik funksiya daşıyan söz ……. adlanır.
● bədii söz
● termin
● təşbeh
● informativ
● təsvir

244. “Sözün bədii üslubda yerinə yetirdiyi vəzifəyə ……… funksiya deyilir. Bu funksiya üslubi səciyyə daşıyıb məcazi məna bildirir. ” Nöqtələrin yerinə hansı söz yazılmalıdır?
● poetic
● informativ
● terminoloji
● təsviri
● fonetik

245. “İsti su” birləşməsində “isti” sözü hansı funksiyanı daşıyır?
● informativ
● poetic
● məcazi
● terminoloji
● təsviri

246. Poetik funksiya daşıyan ifadələri tapın: 1.soyuq hava, 2.acı söz, 3.ləkəli köynək, 4.daş qəlb, 5.dəmir yumruq.
● 2,4,5
● 1,2,3
● 2,3,4
● 3,4,5
● 1,3,5

247. Biri poetik funksiya daşımır:
● sınıq qab
● dərin məna
● soyuq davranış
● ağır xasiyyət
● isti münasibət

248. Sözün poetik funksiyası qabarıq şəkildə hansı üslubda özünü göstərir?
● bədii
● elmi
● rəsmi-işgüzar
● məişət
● publisistik

249. Hansı cümlədə “qara” sözü poetik funksiya daşıyır?
- Kəndə qara xəbər gəldi
- Qara rəngi insanlar sevir
- Aygünün qara saçları var
- Tərkibində çürüntü çox olan torpaqların rəngi qara olur
- Oğlanın qara rəngli maşınlardan xoşu gəlir

250. M.Füzuli poetizmləri ......... söz adlandırmışdır:
- diri söz
- ölü söz
- bədii söz
- poetik söz
- ədəbi söz